1_Layout 1 13.12.2023 17:56 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 24 (663)

15 dekabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# PREZİDENT İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT EDİB

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötdü.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anıb, məzarı üzərinə gül dəstələri qoyub.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

x x x



Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, ordu quruculuğu bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı.



Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edildi.

Sərəncamda da qeyd olunduğu kimi, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olursun".

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı, qalib sərkərdə İlham Əliyev böyük və müdrik xalqımıza bu il sentyabrın 20-də növbəti Qələbənin sevincini yaşatdı. Dövlət bayrağımızı əzəli və əbədi torpaqlarımızda - Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltmaqla xalqımızın arzularını çin etdi. Müstəqil Azərbaycanın suverenliyi tam bərpa olundu.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

**AZƏRTAC**

# Daxili işlər naziri Quba rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 6-da və 7-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Quba rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 93 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

37 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 133 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.12.2023 17:52 Page 1



# TABOR VƏ DƏSTƏ KOMANDİRLƏRİ İLƏ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

Noyabrın 29-30-da Daxili Qoşunların Təlim mərkəzində tabor və dəstə komandirləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışın məqsədi tabor və dəstə komandirlərinin Silahlı Qüvvələrin Ümumqoşun Nizamnamələri və rəhbər sənədlərin tələbləri üzrə biliklərinin, xəritədə işləmə səriştələrinin, atıcılıq qabiliyyətlərinin və fiziki hazırlıq səviyyələrinin müəyyən edilməsi, müxtəlif tapşırıqların icrası zamanı qərarvermə bacarıqlarının təkmilləşdirilməsi, həmçinin qabaqcıl təcrübənin öyrənilməsi olub.





İlk olaraq, toplanışın keçirilməsinə dair Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının əmri, tədbirlər planı, məşğələ cədvəli, toplanış iştirakçılarının siyahısı, qiymətləndirmə cədvəlləri, eləcə də iş xəritələri və müxtəlif şərti əməliyyat şəraitləri hazırlanıb. Toplanışda 35 nəfər hərbi qulluqçu iştirak edib.



Təsdiq olunmuş məşğələ cədvəlinə uyğun olaraq, Baş İdarənin zabitləri tərəfindən taborda (dəstədə) döyüş xidmətinin və döyüş təliminin təşkili, xəritələrlə iş, hərbi qanunvericilik, döyüş əməliyyatlarının təşkili, şəxsi heyətin xüsusi əməliyyata hazırlanması, hərbi intizamın möhkəmləndirilməsi, tərbiyə işinin planlaşdırılması, həmçinin taborun (dəstənin) döyüş hazırlığının yüksəldilməsi mövzularında məşğələlər keçirilib. Toplanış iştirakçılarından atəş hazırlığından müvafiq normativlər üzrə məqbullar qəbul edilib, Silahlı Qüvvələrin Ümumqoşun Nizamnamələri, Daxili Qoşunların taktiki hazırlığı və metodiki hazırlıq üzrə nəzəri bilikləri yoxlanılıb, nəticələri barədə müvafiq qeydlər aparılıb.

Toplanış iştirakçılarına şərti əməliyyat şəraitinə uyğun iş xəritələri paylanılıb, müvafiq təlim qrupları yaradılıb. Qəbul edilən qərarların iş xəritələrinə işlənilməsi təmin olunub.

Sonda tabor və dəstə komandirlərinə idarəçilik fəaliyyətlərinin, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və hərbi intizamın möhkəmləndirilməsi istiqamətində kəsərli tədbirlər görülməsi barədə tapşırıq və tövsiyələr verilib.

**kapitan Xədicə Hacızadə**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ MÖHKƏM HƏRBİ İNTİZAMA NAİL OLAN BÖLÜK

16073 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri baş leytenant Vüsal Abdullayev bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçulara bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlıqlarını, mənəvi-psixoloji durumlarını əsas şərt kimi dəyərləndirən baş leytenant V.Abdullayev digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarığının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.

Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Ümumiyyətlə xidmətə cəlb ediləndək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Azər Paşayev və tərbiyə işləri üzrə bölmənin zabitləri xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparırlar. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır".







Baş leytenant V.Abdullayev qeyd etdi ki, keçirilən təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Şükür İbrahimovun yaxından iştirak etdiyini deyən baş leytenant V.Abdullayev onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Komandir onu da əlavə etdi ki, şəxsi heyətlə mütəmadi olaraq təşkil edilən məşğələlərin nəticəsi olaraq 2023-cü ilin iyul ayının döyüş xidmətinin və hərbi intizamın yekunlarına görə komendant bölüyü hərbi hissənin bölmələri arasında qabaqcıl yerə layiq görülüb: "Bu uğur bütün şəxsi heyətin əzmkarlığının nəticəsi kimi hər birimizi sevindirir və bundan sonra da xidməti fəaliyyətimizdə müsbət tərəfdən fərqlənməyimizi stimullaşdırır".

Bölük komandiri layiqli xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan leytenant Elmir Cəfərov, gizir Azər İbrahimov, çavuş İbrahim Babayev və əsgər İlqar Əmirlinin adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# KİÇİK KOMANDİRLƏRİN VƏ MÜTƏXƏSSİSLƏRİN HAZIRLIĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Respublikamızın ərazi bütövlüyü uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda yaradılan 25032 saylı hərbi hissə hazırda tədris təyinatlı vəzifələri yerinə yetirir. Artıq 31 ildir ki, fəaliyyət göstərən hərbi hissə Daxili işlər nazirinin və Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının diqqət və qayğısı sayəsində xeyli inkişaf edib, maddi-texniki təchizatı yaxşılaşıb. Burada tədrisin yüksək səviyyədə təşkil olunması üçün hər bir şərait yaradılıb. Hərbi hissədə nəzərəçarpan səliqə-sahman, aparılan abadlıq və yenidənqurma işləri komandanlıq tərəfindən şəxsi heyətə göstərilən qayğının təzahürüdür. Bu qayğı hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Bilal Hacıyevlə söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər, sürücü və kiçik mütəxəssislər (rabitəçi və aşpazlar) hazırlanır və qoşunların hərbi hissələrinə göndərilirlər. Kurslar ildə 4 dəfə 3 ay olmaqla keçirilir. Hər bir kursun sonunda hərbi qulluqçulardan imtahanlar qəbul olunur və imtahanları müvəffəqiyyətlə başa vuranlara müvafiq şəhadətnamələr təqdim edilir.

Polkovnik-leytenant B.Hacıyev bildirdi ki, hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür. Bölüyün əsas təyinatı hərbi qulluqçulara manqa komandirinin vəzifələrinin, tabelikdə olan əsgərlərlə təlimin, sıra hazırlığının və tərbiyə işinin aparılması qaydalarının öyrədilməsidir. Kiçik komandirlərin metodiki ustalıqlarının, təşkilatçılıq və idarəetmə qabiliyyətlərinin artırılması da əsas vəzifələrdir.

Məşğələlərin keyfiyyətli şəkildə təşkili və keçirilməsində kiçik komandirlər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim baş leytenant Fərid İbadlının fəaliyyəti danılmazdır.

Baş leytenant F.İbadlı vurğuladı ki, kiçik komandirlərin hazırlanmasında əsas məqam tədris proqramının dərindən mənimsənilməsidir. Belə ki, tədris müddəti ərzində məşğələlərdə fəal olan, daha çox öyrənməyə can atan və bütün bilikləri təcrübədə tətbiq etməyi bacaran hərbi qulluqçular yekun imtahanında yaxşı nəticələr göstərirlər.

Kiçik komandirlərin hazırlanması kursu müvafiq proqramın tələblərinə uyğun təşkil olunur. Tədris proqramı bitdikdən sonra hərbi qulluqçular təcrübə keçmək üçün öz hərbi hissələrinə ezam olunaraq, manqa komandiri kimi fəaliyyət göstərirlər. Təyin olunmuş müddət bitdikdən sonra bütün hərbi qulluqçular hərbi hissəyə qayıdırlar və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təsdiq olunmuş imtahan komissiyası hərbi qulluqçuların əldə etdikləri bilikləri hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə imtahanlar qəbul edir. Təbii ki, sınaqları "əla" və "yaxşı" qiymətlərlə başa vuranlar "kiçik çavuş" hərbi rütbəsi verilməklə aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

Kiçik mütəxəssislərdən aşpazlarla məşğələlər ilk iki ayda nəzəri olaraq keçirilir. Sonuncu üçüncü ayda yeməkxanada yeməkxana rəisinin rəhbərliyi ilə onlarla praktiki məşğələlər təşkil olunur, müxtəlif təamlar hazırlanır.

Aşpaz hazırlayan tədris taqımının komandiri-müəllim leytenant Umud Rzayev bildirdi ki, aşpazlara ərzaq payı normaları, yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi öyrədilir, o cümlədən gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Rabitə üzrə mütəxəssis hazırlayan tədris taqımının komandiri-müəllim leytenant Ümüd Şahverdiyev söylədi ki, taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda qısa dalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir. Rabitəçilərlə gündəlik olaraq həm nəzəri, həm də praktiki məşğələlər keçirilir: "Rabitəçi mütəxəssislərin hazırlanması Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması aparatlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Məşğələlər zamanı stansiyalardan, sabit rabitə qovşaqlarından, orada olan texnikadan və başqa maddi-təlim bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan aparatlarda, sonra səhra rabitə qovşaqlarında keçirilir. Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir".





Sürücü hazırlayan taqımın hərbi qulluqçularına isə bilik və bacarıqlarının planauyğun, mərhələli şəkildə mənimsənilməsi, avtomobil, həmçinin digər texnikanın hər cür hava və ərazi şəraitində yol hərəkəti qaydalarına uyğun idarə edilməsi tədris olunur. Məşğələlər sürücü-təlimatçıların nəzarəti altında, həftədə 6 saat nəzəri, həftənin 5 günü isə praktiki olmaqla keçirilir. Nəzəri məşğələlərdə "Avtomobillərin quruluşu və istisması", "Avtomobilin idarə edilməsi və hərəkət təhlükəsizliyinin əsasları", "Yol hərəkəti qaydaları", "Yol nişanları" təlim fənləri üzrə biliklər tədris olunur. Həmçinin avtomobillərin quruluşu, onların istisması, idarəetmənin əsasları və hərəkət təhlükəsizliyi, avtomobillərin praktiki idarə olunması, yol hərəkəti qaydaları və s. şəxsi heyətə öyrədilir. Praktiki məşğələlər poliqonda keçirilir. Məşğələlər başa çatdıqdan sonra "B" və "C" dərəcəli sürücülərin hazırlanması üzrə tədris proqramını mənimsəmiş hərbi qulluqçulardan Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin müvafiq şöbəsi tərəfindən imtahanlar qəbul edilir. İmtahanlarda yüksək nəticələr əldə edənlərə sürücülük vəsiqələri təqdim edilir və onlarla 250 kilometrlik xüsusi-taktiki yürüş keçirilir. Yürüşü müvəffəqiyyətlə başa vuran hərbi qulluqçular avtomobili idarə etmək hüququ qazanırlar. Tədris dövründü, eləcə də imtahanları müsbət qiymətlə başa vuran və sürücülük vəsiqəsi verilən hərbi qulluqçular qoşunların hərbi hissələrində sürücü vəzifələrinə təyin olunurlar.

Göründüyü kimi, hərbi hissədə savadlı və bacarıqlı komandir, habelə mütəxəssis heyətinin hazırlanması üçün hərtərəfli şərait yaradılıb.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 13.12.2023 17:47 Page 1



*Şəhidlərimiz*

# MƏRD XÜSUSİ TƏYİNATLI OLARAQ TÜKƏNMƏZ DÖYÜŞ RUHU VARDI...

Vətən uğrunda həyatını qurban vermək həyatda insanın ən böyük fədakarlığıdır. Şəhidlərin keçdikləri şərəfli yol vətənpərvərlik örnəyidir. Bu müqəddəs zirvəyə ucalan oğulların ürəkləri son nəfəslərinədək Vətən eşqi ilə döyünüb.

44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayının 19-dan 20-dək keçirilən antiterror tədbirləri nəticəsində qazanılan hərbi zəfər müstəqil dövlətimizin tarixində yeni səhifə açıb. Azərbaycan ərazisi bütövləşən və suveren hüquqları tam bərqərar olan ölkəyə çevrilib. İşğalçı Ermənistan isə rüsvayçı məğlubiyyətə uğrayıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi, "Miatsum" kitabı bağlanıb. Doğma yurdlarımızı itirdikdən sonra xəcalət hissi ilə yaşadığımız, "məcburi köçkün" adından utandığımız, ancaq qəlblərimizdə intiqam atəşinin sönmədiyi həsrət və ümid dolu çətin illər geridə qalıb. Əcdadlarımızın ruhları rahatlıq tapıblar. "Dəmir yumruq" qətiyyəti bizi qalibiyyət iftixarı ilə ödülləndirib.

Qələbəmizə layiqli töhfə verən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biri də əsgər Məmmədov İsmayıl Fərhad oğludur. Şəhid xüsusi təyinatlının mənalı ömür yoluna nəzər saldım, ailəsindən və silahdaşlarından onun haqqında maraqlı məlumatlar topladım.

O, 1992-ci il martın 10-da Sabirabad rayonunun Cəngən (indiki adı Cəngan) kəndində doğulub. Valideynləri Fərhad Məmmədov və Gülzar Məmmədova təqaüdçüdürlər. Aidə Cəfərova və İradə Həsənova bacıları, Hikmət Məmmədov isə qardaşıdır, onlar yaşca İsmayıldan böyükdürlər. Ailənin sonbeşiyi kimi doğmalarının daha çox sevgi və qayğısı ilə böyüyərək boya-başa çatıb. Xaraktercə mehriban, səmimi, ədəb-ərkanlı, xeyirxah, dürüst olması onu fərqləndirən cəhətləri idi. Dostlarına diqqətli və köməyini əsirgəməyən olub. Zərərli vərdişlərdən uzaq durub, idmanın karate növü ilə maraqlanıb, məşqlərə gedib, güc və məharətini ildən-ilə artırıb.

Cəngan kəndində yerləşən şəhid Azər Məmmədov adına tam orta məktəbdə 9 il təhsil alıb. Orta məktəbdə ana dili və ədəbiyyat, fiziki tərbiyə, çağırışaqədərki hazırlıq fənlərinə maraq göstərib. Valideynləri İsmayılın davranışı haqqında müəllimlərindən həmişə xoş sözlər eşidiblər, çalışqanlığı vurğulanıb. Yeniyetmə vaxtından hərbçi peşəsinə rəğbəti vardı.

Şirvan şəhərindəki peşə təhsili məktəblərindən birində avtomobil sürücüsü ixtisasına həvəslə yiyələnib. Hərbi xidmətə göndərilənədək bir müddət işləyib, ailəyə kömək etməyi övladlıq borcu bilib.

2010-cu ilin aprel ayında İsmayıl müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət keçib. Tərtər rayonunun ərazisində torpaqlarımızın müdafiəsində dayanıb. Əsgər olaraq hərbi xidmət borcunu ləyaqətlə yerinə yetirib. 2011-ci ilin oktyabr ayında hərbi xidmətdən ehtiyata buraxılıb. Tərxis olunduqdan sonra bir neçə il mülki işdə çalışıb, zəhmətə qatlaşmaq onun əsas həyat vərdişlərindən biri kimi özünü büruzə verib.



2016-cı ilin aprel ayında düşmənlə təmas xəttində başlamış və bir neçə gün davam etmiş döyüşlər torpaqlarımızın müəyyən hissəsinin işğaldan azad olunması ilə nəticələnib. Həmin vaxt ordumuzun təcavüzkara tutarlı zərbə endirməsi bütün cəmiyyətimizdə, xüsusən də gənclər arasında coşqu və ruh yüksəkliyi yaradıb. Aprel döyüşlərindən bir ay sonra İsmayıl həyatını dəyişən qərar verib, belə ki, hərbçi kimi Vətənə, xalqa dayaq olmaq yolunu seçib. Xüsusi təyinatlı bölmədə xidmət etməyi qarşısına məqsəd qoyub. Bu addımı atarkən valideynlərindən xeyir-dua alıb. Beləliklə, Daxili Qoşunların sıralarında xidmət etmək üçün müraciətini komandanlıq müsbət cavablandırıb.

2016-cı ilin may ayının 11-də İsmayıl 25033 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, götürmə qrupunun xidməti itlərin tətbiqi yarımqrupunun sürücü-atıcısı, sonra imtahan verməklə xüsusi təyinatlı dəstəyə keçirilərək snayper, atəş təminatı və xüsusi həmlə qruplarının heyət nəfəri vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirləri tərəfindən bir neçə dəfə mükafatlandırılıb. Hər iki dəstədə xidməti zamanı silahdaşlarının hörmətini qazanıb. Hərbçi peşəsinin çətinlikləri onu heç vaxt ruhdan salmayıb. Xüsusi təyinatlı bölmələrdə uğurlu xidmət etməsi onun dözüm və iradəsindən, özünə qarşı tələbkarlığından, hərtərəfli hazırlığından, verilən tapşırıqları peşəkarlıqla yerinə yetirməsindən irəli gəlib.

25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri mayor Cavid Tağıyev Vətən müharibəsi iştirakçısıdır. Komandir tabeliyində xidmət etmiş İsmayılı intizamlı, müsbət mənəvi keyfiyyətlərə malik, yüksək döyüş hazırlıqlı, Vətənə sədaqətli hərbi qulluqçu kimi xatırladığını diqqətə çatdırdı. O bildirdi ki, İsmayıl dəstədə funksional vəzifələrinin öhdəsindən layiqincə gəlib, ayrı-ayrı təyinatlı qrupların tərkibində xidmət keçərək gərəkli təcrübəyə yiyələnib, peşəkarlıq vərdişlərini təkmilləşdirib. Praktiki təlimlərdə fəal iştirak edib. Xüsusi təyinatlıların yarışlarına qatılıb, birinciliyə can atıb.

Koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması məqsədilə Lənkəran, Lerik, Cəlilabad və Biləsuvar rayonlarının ərazilərində xidmətə çıxıb. İcraçılığında, sayıqlığında heç bir nöqsana yol verməyib.

Mayor C.Tağıyev məlumat verdi ki, 44 günlük Vətən müharibəsi başladıqdan sonra dəstənin xüsusi təyinatlıları 16077 saylı hərbi hissəyə göndərilərək bir müddət orada yerləşdiriliblər. Ehtiyat qüvvə qismində döyüşlərdə iştirak etməyə hazırlaşıblar. 2020-ci ilin oktyabr ayının ortalarında isə Füzuli rayonuna gəliblər. Həmin vaxt ön cəbhənin bu və digər istiqamətlərində ayrı-ayrı qoşun növlərinə aid xüsusi təyinatlı bölmələrin şəxsi heyətinin birgə iştirakı ilə erməni işğalçılarına qarşı döyüş əməliyyatları səngimədən daha da genişlənib. Dəstənin hərbi qulluqçuları Füzuli rayonunun bəzi yaşayış məntəqələrinin azad olunması və müdafiəsi, nəzarətimizə keçən ərazilərdə axtarış tədbirlərinin görülməsi, qənimət götürülən silah-sursatın mühafizəsi, eləcə də digər döyüş tapşırıqlarını yerinə yetiriblər. Sonra oktyabr ayının sonundan etibarən Şuşa uğrunda hücum əməliyyatına qatılıblar. Xocavənd və Xocalı rayonlarının çətin relyefli ərazilərindən bir neçə gün ərzində keçməklə, düşmən artilleriyasının atəşinə məruz qalaraq, onun atəş nöqtələrini susduraraq, sızma, kəşfiyyat, pusqu fəaliyyətlərini icra edərək Şuşa ətrafına yaxınlaşıblar. Şəhər uğrunda düşməni məğlubiyyətə uğradanadək qətiyyətlə vuruşublar. İsmayılın döyüş yolu noyabrın 6-dək davam edib.

Vaxtilə 25033 saylı hərbi hissədə xidmət etmiş, 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun komandiri kapitan Taleh Rüstəmli də Vətən müharibəsi iştirakçısıdır. Zabit söylədi ki, İsmayıl onun tabeliyindəki güvəndiyi hərbi qulluqçulardan biri olub. Həm dinc dövrdə, həm də müharibə zamanı xüsusi təyinatlı adının şərəfini uca tutub. Zoğalı bereti daşımağı arzulayaraq bu məqamın yetişəcəyi günü səbirsizliklə gözləyib. Dövlətimiz və xalqımız üçün hər an canını fəda etməyə hazır idi. Ön cəbhədə avtomat silahı ilə işğalçılara qan uddurub. Füzuli rayonunda "Karyer" deyilən ərazidə ermənilərin "Beton post" adlanan möhkəmləndirilmiş mövqeyi və Şuşa istiqamətlərində döyüşlərdə onun qorxmazcasına irəli atıldığını görüb.

Kapitan T.Rüstəmli danışdı ki, noyabrın 5-dən 6-na keçən gecə döyüşçülərimizdən bir qrupu Şuşanın qala divarları ətrafında mövqelənib. Həmin ərazi düşmən tankları və artilleriyasından şiddətli atəşə tutulub, orada mərmi qəlpələrindən ağır yaralanan döyüşçülərdən Vüsal, Afər və İsmayıl şəhidlik məqamına yüksəliblər.

Vətən müharibəsi iştirakçıları: qazilər, istefada olan baş çavuş Fərid Əmiyev, ehtiyatda olan çavuşlar Zeynal Məmmədov, İlkin Abuyev, 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunun istehkamçısı çavuş Famil Məmmədov ön cəbhənin od-alovundan keçiblər. Onlar İsmayıl haqqında xatirələrini mənimlə bölüşdülər. Qeyd etdilər ki, o, bacarıqlı, əzmkar, təmkinli hərbi qulluqçu, etibarlı yoldaş olub. Komandirləri onun xidmətdə məsuliyyətini şəxsi heyətə nümunə göstəriblər. Silahdaşlarının sözlərinə görə, İsmayıl müharibədə mərdliklə döyüşüb, düşmən üzərində qələbəmizə inanıb, son nəfəsinədək hərbi anda sadiq qalıb. Şuşa yaxınlığında ağır yaralanarkən döyüşçülərdən hazırda qazi, ehtiyatda olan çavuş Zeymud Mustafayev İsmayıla ilk tibbi yardım göstərsə də, onu xilas etmək mümkün olmayıb. Bir neçə gün sonra müharibə başa çatıb. Noyabrın 10-dək yollar atəş altında olduğundan şəhidin nəşi həmin tarixdə döyüş bölgəsindən təxliyyə edilib.



Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 12 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə İsmayılın Şuşada hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələnmələr, aorta qarın hissəsinin travması səbəbindən şəhid olması barədə qeydlər öz əksini tapıb. Ancaq sənəddə onun ölüm tarixi 9 noyabr 2020-ci il yazılıb.

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 11-də Sabirabad rayonunun Cəngan kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər İ.Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

İsmayıl öz nəslinin yeganə şəhididir. Atasının babası Alış Məmmədov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı müharibədə iştirak edib, 1953-cü ildə dünyasını dəyişib. Şəhidin bacısı oğulları Abasağa Cəfərov və Anar Cəfərov Vətən müharibəsi iştirakçılarıdır. Abasağa qazidir, Suqovuşanda yaralanıb.

Cəngan kəndindən 4 nəfər Vətən naminə şəhidlik zirvəsinə ucalıb. Kənddə İsmayılın xatirəsinə bulaq yaradılıb və büst qoyulub. Orta məktəbdə isə adına sinif mövcuddur. Bakı şəhərində 329 saylı, Hacıqabulda isə 10 saylı orta məktəblərdə ayrı-ayrı siniflərə igid döyüşçünün adı verilib. Ailəsinin yaşadığı evdə xatirə guşəsi düzəldilib.

Müəlliflər Şahnaz Şahinin "Sabirabad şəhidləri", Rahil Məmmədin "Müqəddəs savaş" kitablarında, bunlardan əlavə, tərtibçi Rövşən Ağamalıyevin "Əsrimizin qəhrəmanları" nəşrində İsmayıla həsr edilən məqalələr və şeirlər dərc olunub. Dövri mətbuat, ayrı-ayrı televiziya kanalları, sosial şəbəkələrdə xüsusi təyinatlının ömür yolu işıqlandırılıb, haqqında videoçarx hazırlanıb.




Qeyd edim ki, İsmayıl evli olub, Səbinə xanımla ailə qurub, Cəlal və Lamiyə adlı övladları onun yadigarları və ocağının davamçılarıdır. Bacısının nəvəsi şəhidin adını daşıyır.

Ön cəbhədən evə zəng edəndə İsmayıl doğmalarına deyib ki, qələbə bizim olacaq, Şuşada bayrağımızı ucaltmağı arzuladığını söyləyib. Valideynlərinə və qardaşına ailəsindən muğayat olmağı tapşırıb.

Şəhidə həsr olunan şeirlərdən birində aşağıdakı misralar diqqətimi çəkdi:

**Peyğəmbər buyurub: "ölmür şəhidlər",**
**Ruhu susursa da, görür, eşidir.**
**Çoxları "Vətəni sevirəm", - deyər,**
**Uğrunda can vermək oğul işidir.**

**Ruhun şad olsun, igid döyüşçü! Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİD HƏRBİ QULLUQÇULARIN XATİRƏSİ HƏR BİRİMİZ ÜÇÜN ƏZİZDİR

Məlum olduğu kimi, 2020-ci il noyabrın 10-da bağlanmış üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə sentyabr ayının 19-da lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. 24 saatadək davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoyub və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq tam bərpa edib.

Vətən müharibəsində olduğu kimi, antiterror tədbirləri zamanı da Daxili Qoşunların hərbi qulluqçuları rəşadət nümayiş etdiriblər, onlardan 12 nəfər şəhidlik zirvəsinə ucalıb. Həmin hərbi qulluqçulardan biri də 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Rəşad Hüseynovdur. 25032 saylı hərbi hissəyə xidməti ezamiyyət zamanı dekabr ayının 5-də hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Bilal Hacıyevin rəhbərliyi altında bir qrup hərbi qulluqçu ilə şəhidin ailəsinə baş çəkdik. Görüşdən öncə Şirvan şəhərinin Şəhidlər xiyabanında şəhidin məzarını ziyarət etdik. Şəhadətə ucalmış zabitin xatirəsi anılaraq məzarına gül dəstələri qoyuldu, ruhuna dualar oxundu.



Qeyd edək ki, polkovnik-leytenant R.Hüseynov 1980-ci il martın 10-da keçmiş Əli-Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. Rəhim Hüseynov və Ceyran Hüseynovanın vətənpərvər ruhda böyüdüb tərbiyə etdikləri Rəşadın özündən yaşca kiçik Anar və Rasim adlı qardaşları var. Qardaşı Anar da hərbçidir, Müdafiə Nazirliyinin sıralarında Vətənə xidmət edir.

Şəhidin valideynləri məlumat verdilər ki, Rəşad orta təhsilini doğulub boya-başa çatdığı şəhərdə tam orta məktəbdə alıb. 1998-2002-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Qoşunların döyüş fəaliyyətinin idarə edilməsi, motoatıcı, tank, hava-desant, desant-hücum qoşunlarının və dəniz piyadalarının döyüş tətbiqi, Daxili Qoşunların Taktiki komandanlığı" ixtisası üzrə ali hərbi təhsil alıb.

2003-cü ilin iyun ayından Daxili Qoşunların 16075 saylı hərbi hissəsində həqiqi hərbi xidmətə başlayıb. Həmin hərbi hissədə patrul bölüyünün patrul taqımının komandiri, patrul bölüyü komandirinin tərbiyə işləri üzrə müavini vəzifələrində xidmət edib. Daha sonra 25033, 16073, 17074 və 17071 saylı hərbi hissələrdə özünü savadlı və bacarıqlı zabit kimi göstərib. 2021-ci ilin iyul ayından isə 17072 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri olub. Xidmət etdiyi müddət ərzində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, komandir, döyüş və ictimai-siyasi hazırlığında, qayda-qanunun və hərbi intizamın möhkəmləndirilməsində yüksək nəticələr əldə etdiyinə görə dəfələrlə mükafatlandırılıb.



Rəşadın valideynləri söhbət zamanı onun ömür yolu barədə xatirələrini bölüşdülər. Onun hələ yeniyetmə yaşlarından idmana, o cümlədən hərbçi peşəsinə böyük maraq göstərdiyini vurğuladılar. Şəhidin atası qeyd etdi ki, Rəşad uşaqlıqdan idmanın güləş növü ilə məşğul olub, iştirak etdiyi şəhər üzrə birincilik yarışlarında müxtəlif dərəcəli diplom və medallarla mükafatlandırılıb. Məktəbin müəllim-şagird kollektivi, qohum-əqrəba, həmçinin yaşadığı məhəllə sakinləri arasında tərbiyəli, böyük-kiçik yeri bilən və hər kəslə mehriban davranan gənc kimi tanınıb. Valideynləri, yaxınları Rəşadın hərbi xidmətdə qazandığı uğurları, qüsursuz xidməti ilə hər zaman fəxr ediblər.

Antiterror tədbirləri zamanı ağır yaralanan polkovnik-leytenant R.Hüseynov sentyabrın 21-də hərbi qospitalda şəhadət məqamına yüksəlib. Məlumat üçün onu da bildirək ki, ailə üzvlərinin yaşadıqları ünvanda şəhidin xatirə guşəsi düzəldilib.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında şücaət və mərdlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısına qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə polkovnik-leytenant R.Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

Şəhidin Rəşidə və Xədicə adlı iki qız övladı yadigar qalıb.

Hərbi qulluqçumuzun əziz xatirəsi onu sevənlərin qəlbində əbədi olaraq qalacaqdır.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 13.12.2023 17:05 Page 1



# FƏDAKAR YOL KEÇƏN 31 YAŞLI "ƏSGƏR" QƏZETİ

Dekabrın 16-da "Əsgər" qəzetinin birinci sayının işıq üzü görməsindən 31 il ötür. Qəzet hərbi mətbuatımızın ilk nümunələrindən biri kimi tarixi yaddaş baxımından çox dəyərlidir. Ölkəmizin Ermənistanın hərbi təcavüzünə məruz qaldığı, ərazi bütövlüyümüz uğrunda şiddətli döyüşlərin getdiyi bir dövrdə yaradılan "Əsgər" qəzeti vətənpərvərlik missiyasına daim sadiq qalıb. Odlu səngərlərə çatdırılan qəzet hərbi qulluqçularımıza Vətən sevgisi və döyüş ruhu aşılayıb. Həmin vaxtdan "Əsgər" döyüşçü qəzetinə, hərbi ənənələrimizin təbliğatçısına, qəhrəmanlıq salnaməmizin əksini tapdığı informasiya mənbəyinə çevrilib.

Ötən dövrdə "Əsgər" hərbi qəzet kimi formalaşma və inkişaf yolunu keçib. Oxucu nəsilləri bir-birini dəyişsə də, qəzetin işıqlandırdığı mövzulara maraq heç vaxt azalmayıb.

Qeyd edim ki, "Əsgər" nəşr olunduğu tarixdən bu günədək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının mətbuat orqanıdır. Onun səhifələrində Daxili Qoşunların tarixi, döyüş yolu, quruculuq və inkişaf mərhələləri, xidməti fəaliyyətinin müxtəlif istiqamətləri, şəxsi heyətin təlim-tərbiyəsi ilə bağlı maraqlı məqalələr dərc olunub.




Xüsusi vurğulamağı vacib bilirəm ki, "Əsgər"in fəaliyyətində Ümummilli Lider Heydər Əliyevin ictimai-siyasi irsinin, dövlətçilik məfkurəsinin öyrənilməsi və geniş təbliği, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin daxili və xarici siyasəti, çıxışları, müsahibələri, səfərləri, müstəqilliyimizin qorunması, ölkəmizin tərəqqisi, ərazi bütövlüyümüzün bərpası, ordu quruculuğu yolunda müstəsna xidmətləri davamlı olaraq diqqət mərkəzində saxlanılıb, qəzetin əsas səhifəsində bu mövzu əhatə edilib.

Oxucularımız arasında təkcə hərbi qulluqçular deyil, onların doğmaları, şəhid ailələri, qazilər və veteranlar da var. Onlar həmişə qəzetə mənəvi dəstəklərini əsirgəməyiblər və bu gün də belədir. Belə sadiq oxucuların qəzetə maraq göstərmələri və dəstəkləri redaksiya heyətini yaradıcılığa ruhlandıran amildir, uğur qazanmağa stimuldur.

"Əsgər" həm Birinci Qarabağ, həm də Vətən müharibələrinin şəhidləri və qaziləri haqqında ən çox məqalə dərc edilən qəzetdir. Hər iki müharibəyə dair diqqətəlayiq faktlar, hərbi qulluqçularımızın fədakarlıq nümunələri və döyüş şücaətləri barədə məlumatlar müxbir qələmi, habelə unikal şəkillər vasitəsilə tarixləşib, ictimaiyyətə təqdim edilib. Redaksiyanın əvvəlki və hazırkı tərkibi üçün ən böyük arzu Qarabağ müharibəsində hərbi zəfərimizin sevincini yaşamaq, bu barədə qəzetdə yazmaq olub. Xoşbəxtik ki, bu müqəddəs arzumuza qovuşmuşuq.

Qəzetin yaranma günündə "Əsgər"in redaktorları olmuş, hərbi jurnalistikamıza layiqli töhfələr vermiş mətbuat təəssübkeşi Təranə Məmmədovanın və şair, veteran Elxan Mirzəyevin əziz xatirələrini ehtiramla anırıq. Redaksiyada ölkəmizin ilk hərbi jurnalistlərindən olan, müharibənin hər üzünü görmüş, öz imzaları ilə mətbuatımızda tanınan Vahid Məhərrəmli, Mərdan Hüseynli və polis polkovniki İlham Babayev xidmət ediblər.

Redaksiyanın arxivi zəngin məlumat bazasıdır və gələcəkdə tədqiqatçılar üçün vacib rol oynayacaqdır. Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti haqqında bir sıra maraqlı kitablar da redaksiya tərəfindən ərsəyə gətirilib. Ötən dövrdə Daxili Qoşunlar barədə sənədli filmlərin, televiziya proqramlarının, videoçarxların çəkilməsinə informasiya dəstəyi göstərilib.

Daxili Qoşunların Mətbuat xidmətinin tərkibində fəaliyyət göstərən "Əsgər" qəzetinin redaksiyasının maddi-texniki təchizatı üçün Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən lazımi şərait yaradılıb. Göstərilən etimad və qayğını doğrultmaq bizim əsas məramımızdır.

31 yaşlı "Əsgər" müasir zamanın çağırışlarını, informasiya texnologiyaları dövrünün xüsusiyyətlərini nəzərə alaraq yenilənir, bununla yanaşı, öz ənənələrini də qoruyub saxlayır.

**Yalçın Abbasov**

*İdman*

# İDMAN KOMANDASI NÖVBƏTİ UĞURA İMZA ATIB

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hərbi qulluqçuların fiziki hazırlığı daim diqqət mərkəzində saxlanılır. Peşəkar idmançılarımız üçün yaradılan hərtərəfli şəraitin nəticəsidir ki, İdman komandasının hərbi qulluqçuları beynəlxalq turnirlərdə uğurlu çıxışları ilə hər birimizi sevindirirlər. Bu il ərzində keçirilmiş müxtəlif idman yarışlarında ölkəmizi layiqincə təmsil edən hərbçilərimizin qazandıqları nailiyyətlər təqdirəlayiqdir.




Bu günlərdə idman komandasının atıcı-idmançısı əsgər Laçın Vəliyevin qazandığı uğurla bağlı xəbər sevindirici oldu. Belə ki, o, noyabr ayının 28-dən dekabr ayının 2-dək Bakı şəhərində təşkil olunmuş hərbçilərin dünya çempionatında iştirak edib. 18 ölkədən 203 nəfər idmançının qatıldığı yarışda əsgər L.Vəliyev idmanın Yunan-Roma güləş növü üzrə 87 kq çəki dərəcəsində 2-ci yerə çıxıb.

Qeyd edək ki, hərbi qulluqçu 2002-ci ilin fevral ayının 4-də Göyçay rayonunda anadan olub. O, 2023-cü ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şuşa Rayon Bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. İdmanla mütəmadi olaraq məşğul olan hərbi qulluqçumuz 5 dəfə respublika, 2018 və 2019-cu illərdə yeniyetmələr arasında Avropa, 2019-cu ildə gənclər arasında dünya çempionu adını qazanıb. 2022-ci ildə isə böyüklərarası dünya çempionatında 2-ci yerə layiq görülüb. Eləcə də dəfələrlə bir çox beynəlxalq turnirin qalibi olub.

Ümid edirik ki, bundan sonra da idmançı hərbi qulluqçularımızın uğurları davam edəcək, onları beynəlxalq kürsülərin ən uca pillələrində görəcəyik.

**kapitan Xədicə Hacızadə**

# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI ETİBARLI ƏLLƏRDƏDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunması həmişə diqqət mərkəzindədir. Çünki sağlamlıq amili döyüş hazırlığına bilavasitə təsir göstərir. 16076 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edir.

Tibb xidmətinin tibb məntəqəsinin rəisi tibb xidməti baş leytenantı Firudin Əmirov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır. Ambulator xəstələrin qəbulunu, onlara yardım göstərilməsini, təyinatların icrasına nəzarəti, həmçinin xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılmasını həyata keçirir.



Müsahibim bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Xidmət daxilində keçirilən iclasda gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir.



Məntəqə rəisi şəxsi heyətin sağlamlığının qorunması barədə məlumat verərkən nəzərə çatdırdı ki, mövsümə uyğun olaraq hərbi qulluqçuların müxtəlif xəstəliklərdən qorunması üçün profilaktik tədbirlər görülür.

Bundan əlavə, qarovul xidmətinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələr tibbi preparatlarla fasiləsiz olaraq təmin edilir.

Tibb xidmətinin hərbi qulluqçuları: feldşer gizir Elşad Kərimov və sanitar-təlimatçı, dezinfektor baş çavuş Zəmanət Bayramova qarşıya qoyulan tapşırıqları uğurla və vaxtında yerinə yetirirlər. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Görülən bu işlərin əsas məqsədi hərbi qulluqçularımızın sağlam və güclü olmasıdır.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏLƏRİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLƏN MƏSUL İCRAÇI-TEXNİK

12318 saylı hərbi hissənin nümunəvi xidmətilə seçilən, nizam-intizamlı hərbi qulluqçularından biri olan gizir Amil Hüseynov 1984-cü ilin aprel ayının 3-də Şirvan şəhərində doğulub. Orta təhsilini Şirvan şəhərindəki 16 nömrəli tam orta məktəbdə alıb. 2002-ci ilin aprel ayından 2003-cü ilin oktyabr ayınadək 67987 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib. 2004-cü ildə Şirvan Şəhər Dövlət Pedaqoji və Humanitar Kollecinə qəbul olunub. 2008-ci ildə idman müəllimi-məşqçi ixtisası üzrə təhsilini müvəffəqiyyətlə tamamlayıb. 2008-ci ilin oktyabr ayından 12318 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hazırda hərbi hissənin qərargahının məsul icraçı-texniki vəzifəsində xidmətini davam etdirir. Hərbi hissə komandanlığı tərəfindən bacarıqlı, savadlı, vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi xarakterizə olunur. Xidmətin aparılmasına dair müvafiq əmr, sərəncam, göstəriş və təlimatların tələblərini bilir, ciddi şəkildə onlara əməl edir.



Hərbi qulluqçumuzla söhbət zamanı məlum oldu ki, müəyyən olunmuş vaxtda serverlə kompyuter əlaqəsinə çıxmaq, elektron poçtu yoxlamaq, daxil olan sənədləri təyin olunmuş qaydada qəbul etmək və qeydiyyatını aparmaq onun vəzifələridir. Gizir A.Hüseynov icraçılar tərəfindən xidməti sənədlərin saxlanılmasını, eləcə də sənədlərin vaxtlı-vaxtında kargüzarlığa qaytarılması qaydalarına riayət edilməsini nəzarətdə saxlayır.

Vəzifələrinin öhdəsindən layiqincə gələn Amilə bundan sonra da xidmətində uğurlar arzulayırıq.

**12318 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# QIZILCA XƏSTƏLİYİ: Əlamətləri və müalicəsi

Qızılca əsasən uşaqlara təsir edən kəskin yoluxucu virus infeksiyasıdır. Lakin qızılca peyvəndi ilə bunun qarşısını almaq mümkündür. Xəstəliyin törədicisi Rubella adlı virusdur.

Qızılca xəstəliyinin əlamətlərinə quru öskürək, zökəm, yüksək hərarət, gözlərdə və dəridə qızartı daxildir. Qızılca səpgisindən əvvəl ağızda kiçik qırmızı ləkələr (Koplik ləkələri) görmək də mümkündür. Səpgilər adətən simptomların başlanmasından 3-5 gün sonra görünür və yüksək hərarətlə müşayiət olunur. Alın nahiyəsində düz qırmızı səpgilərlə başlayır, sonra üz, boyun, bədən, əl və ayaqlara yayılır. Bir neçə gündən sonra hərarət və səpgi yox olur. Qızılcanın digər əlamətlərinə aşağıdakıları qeyd etmək olar:

**Bədəndə səpgilər:** Qızılcanın ən bariz əlaməti bütün bədənə yayılan qırmızı və ya çəhrayı rəngli səpgidir. Səpgilər adətən üzdən başlayır və bədənin digər hissələrinə yayılır.



**Hərarət:** Uşaqlarda qızılca əlamətləri adətən hərarətlə başlayır. Hərarət adətən yüngül və ya orta dərəcədə ola bilər.

**Başağrısı:** Qızılca xəstəliyinin əlamətlərindən biri də başağrısıdır. Başağrısı daha çox səpgilərin başlama vaxtına təsadüf edir.

**Gözlərdə qızartı:** Qızılca gözlərin qızarmasına, işığa qarşı həssaslığa və gözün qıcıqlanmasına səbəb ola bilər.

**Limfa düyünlərində şişkinlik:** Rubella infeksiyası boyunda və ya qulaq arxasında yerləşən limfa düyünlərinin şişməsinə səbəb ola bilər.

**Oynaq ağrıları:** Bəzi hallarda, xüsusən yeniyetmələrdə və böyüklərdə oynaq ağrıları ola bilər.

**İştahasızlıq:** Uşaqlarda qızılca əlamətlərindən biri də iştahasızlıqdır. Xəstələr adətən iştahanın azalmasından şikayət edirlər.



## Qızılcanın müalicəsi və düzgün qidalanma

Qızılca kəskin yoluxucu xəstəlikdir və peyvənd olunmayan hər 10 nəfərdən 9-u yoluxmuş şəxslə təmasda olduqda xəstəliyə tutula bilir. Virus yoluxmuş şəxs asqırdıqda və ya öskürəndə hava damcıları ilə yayılır. Qızılcaya məruz qalan şəxsdə adətən 7-14 gündən sonra simptomlar əmələ gəlməyə başlayır. Qızılca olan insanlar səpgilərin başlamasından 4 gün əvvəl xəstəliyi yaya bilər. Hərarət, zökəm əlamətləri və öskürək olduğu müddətdə onlar daha çox yoluxucu olurlar.

Xəstəliyin sağalması üçün xüsusi müalicə yoxdur. Simptomları yüngülləşdirmək üçün qızılcaya yoluxmuş uşaqlar çoxlu maye qəbul etməli, kifayət qədər istirahət etməli və infeksiyanın yayılmasının qarşısını almaq üçün məktəbdən və ya uşaq bağçasından uzaq durmalıdırlar. Hərarət olduqda, uşağı rahatlatmaq üçün həkim məsləhəti ilə hərarətsalıcı dərmanlar istifadə edilə bilər.

Qulaq infeksiyası, ishal, pnevmoniya, ensefalit kimi ağırlaşmalar yarana biləcəyi üçün qızılcalı uşaqlar həkim tərəfindən yaxından izlənilməlidirlər. Səpgilər göründükdən sonra dörd gün ərzində valideynlərin uşaqlarını başqalarından uzaq tutması son dərəcə vacibdir. İmmuniteti zəif olanlar tam sağalana və bütün simptomlar yox olana qədər təcrid olunmalıdırlar.

Qızılca infeksiyası və əlaqəli ağırlaşmalar bir neçə həftə davam edə bilər. Uşaqları qızılcadan qorumağın ən təsirli yolu peyvənddir.

**DQBİ-nin Tibb xidməti**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*

## "Kornet" TƏİR komplekslərinin sifarişçiyə çatdırılması tamamlanıb

"Yüksək Dəqiqlikli Komplekslər" holdinqinin Alət Dizayn Bürosu "Kornet" tank əleyhinə idarə olunan raket (TƏİR) komplekslərinin 2023-cü ilin dövlət müdafiə sifarişinə uyğun olaraq Rusiya Müdafiə Nazirliyinə təhvil verilməsini başa çatdırıb. Bu barədə "Poliqon" "Yüksək Dəqiqlikli Komplekslər" holdinqinə istinadən xəbər verib.

Bildirilib ki, əsas xüsusiyyətlərinə görə öz sinfində dünyada ən yaxşısı sayılan "Kornet" TƏİR kompleksi hərbi əməliyyatlar zamanı Qərb istehsalı olan "Leopard" və "Challenger" tanklarını, "Bradley" piyada döyüş maşınlarını (PDM) və digər zirehli texnikaları məhv edib.



# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı baş çavuş Nəriman Nuriyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı baş leytenant Ayxan Mustafayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı gizir Elşən Musayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000